*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2024, № 1*
*Səhifə: 146-152*
*https://doi.org/10.59849/2663-4406.2024.1.146*

*ISSN: 2663-4406*
*E-ISSN: 2709-2699*

# Müstəqillik dövrü Azərbaycan şeirində bayatı janrının vəziyyəti və poetik imkanları

**Şəmsurə İsmayılova**
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu

**Annotasiya.** Məqalədə türk şeirinin ən geniş yayılmış qədim formalarından biri olan bayatıdan bəhs olunur. Qeyd olunur ki, bayatı janrı müstəqillik dövrü poeziyamızda əksər şairlərin müraciət etdiyi şeir forması olmuş, daha çox əbədi, əzəli Qarabağ torpaqlarımızın otuz illik itkisi, bu üzdən vətən, torpaq, yurd ağrısından irəli gələn duyğular, həsrət, nisgil hissləri bu janrda öz ifadəsini tapmışdır. Səbəb janrın ehtiva elədiyi ovqat çaları – vətən, yurd ağrısı ilə bağlı duyğuların bu janrda daha hüznlü bir şəkildə ifadə olunması ilə bağlıdır.
Bayatı türk şeirinin ən geniş yayılmış qədim formalarından biri kimi klassik poeziyamızda aparıcı yer tutub. Müstəqillik dövrü poeziyamızda bayatı janrında yazan şairlərdən Zəlimxan Yaqub, Fikrət Qoca, Məmməd Namaz, İlham Qəhrəman, Mahirə Nağıqızı, Elşad Barat və digərlərinin adlarını çəkmək olar.
**Açar sözlər:** müstəqillik, Qarabağ, poeziya, bayatı, janr, forma, axtarış, yenilik

**Məqalə tarixçəsi:** göndərilib – 10.01.2024; qəbul edilib – 23.01.2024

# The situation of bayati genre and poetic possibilities in Azerbaijani poetry of independence period

**Shamsura Ismayilova**
Institute of Literature named after Nizami Ganjavi of ANAS

**Abstract.** In the article is dealt with the bayati, one of the most common old forms of Turkish poetry. It is noted that the bayati genre became a form of poetry used by most of the poets of our poetry of independence period; 30-year of loss of our eternal, glorious Karabakh lands, the feelings arising from the pain of homeland, land, a sense of longing found its expression in this genre. The reason for this is the frame of mind contained by genre and sad expression of feelings of the pain of motherland and land in this genre.
Bayati has gained an important place in our classical poetry as one of the most common ancient genres of Turkish poetry. Among the poets who wrote in the genre of bayati during the period of our independence, we can notice the names of the poets such as Zalimkhan Yagub, Fikret Goja, Mammad Namaz, Ilham Gahraman, Mahire Naghigizi, Elshad Barat and others.
**Keywords:** independemce, Karabakh, poetry, bayati, genre, form, research, novelty

**Article history:** received – 10.01.2024; accepted – 23.01.2024





## Giriş / *Introduction*

Bayatı janrı müstəqillik dövrü poeziyamızda əksər şairlərin müraciət etdiyi şeir forması olmuş, daha çox əbədi, əzəli Qarabağ torpaqlarımızın otuz illik itkisi, bu baxımdan vətən, torpaq, yurd ağrısından irəli gələn duyğular, həsrət, nisgil hissləri bu janrda öz ifadəsini tapmışdır.

## Əsas hissə / *Main part*

Bilirik ki, bayatı türk şeirinin ən geniş yayılmış qədim formalarından biri kimi klassik poeziyamızda aparıcı yer tutub. "Yeddi hecalı, dörd misralı bu bir bəndlik şeir növü həm hikmət dolu fəlsəfi məzmunu, həm mövzu əlvanlığı, həm də poetik gözəlliyi ilə insanı heyran edir, onu yaradan və ağızdan-ağıza yaşadan xalqın dühası haqqında möhtəşəm təsəvvür yaradır" [10, s.182-183]. Bu şeir formasının özəllikləri, etimologiyası barədə Mahmud Kaşğari, Salman Mümtaz, Əmin Abid, Məhəmmədhüseyn Təhmasib, Əbdüləzəl Dəmirçizadə, Vaqif Vəliyev, Əziz Mirəhmədov, Paşa Əfəndiyev, Azad Nəbiyev, Sədnik Paşayev, Asif Hacılı, Məhərrəm Qasımlı, Rüstəm Rüstəmzadə və b. görkəmli folklorşünas alimlər, elm adamları geniş məlumat vermiş, yetərincə tədqiq etmişlər. Zamanında dilimizdə manı, "mahnı" kimi "qu-bilik", Mahmud Kaşğarlının "Divani-lüğət-it-türk", "Mən aşiq", "Aşiqəm", "Mən aşiqəm", "Eləmi" kimi müraciətlərlə başlayan bayatı janrının ən çox yayılmış nümunələrini Lələ (XV əsr), Sarı Aşıq (XVII əsr) yaratmışdır. Bundan başqa, Ağabəyim Ağanın, Aşıq Pərinin dillər əzbəri olan bir çox bayatıları bu janrın incilərindəndir.

Müstəqillik dövrü poeziyamızda bayatı janrında yazan şairlərdən Zəlimxan Yaqub, Fikrət Qoca, Məmməd Namaz, İlham Qəhrəman, Mahirə Nağıqızı, Elşad Barat və digərlərinin adlarını çəkmək olar. Bu şairlərin bayatı janrına müraciətlərində eyni motiv hakimdir, eyni hüzn, eyni ağrı, eyni yurd nisgili poetikləşdirilib. Professor Asif Hacılı poeziya tariximizdə bayatı janrının daim funksional olduğunu bildirərək yazır: "Azərbaycan folklorunun ən qədim janrlarından olan bayatılar sadəlik və mürəkkəbliyin, aşkar və gizlinin, ilkinlik və çağdaşlığın qəribə vəhdətiylə müasir oxucunu heyrətə salır. Ancaq bu heyrətdən və bayatı müdrikliyinin ani dərkindən doğan hisslər ən munis duyğulardır. Bayatı təfsiri, əslində, mədəniyyət və dilimizin, özlüyümüzün dərki deməkdir. Etnik ruhumuzu yaşadan bayatılar buna görə milli filoloji fikri daim cəlb etmişdir" [5, s.3].

Bu, doğrudan da, belədir, mifoloji və metaforik düşüncə tərzi şifahi xalq yaradıcılığının mayasını təşkil etdiyindən, onun "dərketmə" qüvvəsi daha üstün olmuş, bu səbəbdən insanın ən dərin, ən həssas duyumlarını lirik lövhələrlə canlandırmağa potensialı yetmişdir. Qeyd etmək lazımdır ki, müstəqillik illərində Qarabağ işğalı ilə bağlı olaraq poeziyamızda bu janra diqqət ön plana keçmişdir. Səbəb janrın ehtiva elədiyi ovqat çaları – vətən, yurd ağrısı ilə bağlı duyğuların bu janrda daha hüznlü bir şəkildə ifadə olunması ilə bağlıdır. Bu elə yaranışdan bayatının boyuna biçilən tale nəğməsidir, – deyə bilərik. Məsələn, ədəbiyyatşünas İfrat Əliyeva "Zəlimxan Yaqub yaradıcılığında Qarabağ mövzusu" adlı məqaləsində yazır: "Heç təsadüfi deyil ki, onun (Zəlimxan Yaqubun – Ş.İ.) "Dərdimizin bayatı düzümü" silsiləsindən olan kitabında… xeyli bayatılar toplanmışdır. Bu bayatılarda da Vətən, xalq dərdi önə çəkilib. Xalqın min illər boyu yaratdığı və doğma anasının qoşduğu bayatılar şairin ilham mənbəyinə çevrilmişdir…" [3, s.43]

*Dərd bizi dara bağlar,*
*Yol kəsər, ara bağlar.*
*Qarabağı gedənlər*
*Meylini hara bağlar?*

*Şuşadan Laçına bax,*
*Qarabağdan Xaçına bax.*

*Yazıq anan saç yolur,*
*Əlində saçına bax.*

Görkəmli şairin bayatı janrında yazdığı əsərlərindən "Zəngəzuru tanıyaq və tanıdaq: Zəlimxan Yaqubun Zəngəzur bayatıları" başlıqlı müsahibəsində millət vəkili, şair Musa Urud da maraqla söz açır: "Bir dəfə mənə dedi ki, Zəngəzurla bağlı bir-iki toponim de, istəyirəm Zəngəzur bayatıları yazam... Ekspromt olaraq bir neçə toponim, hidronim və mikrotoponim söylədi... Milli Məclisin növbəti iclasında Xalq şairimiz 12 bayatı yazılmış vərəqi mənə verdi"... [14] Həmin bayatılardan bir neçə nümunəyə diqqət edək:

*Bu torpaq Zəngilandı,*
*Haqqa səcdə qılandı.*
*Boynumuza dolanan*
*Gör, neçə rəng ilandı.*
*Əyinli əyin dilər,*
*Bəysizlər nəyin dilər,*
*Bərgüşada boylanan*
*Görəsən nəyin dilər?*

Təbii ki, Lələdən, Sarı Aşıqdan, Ağabəyim ağadan və b. gələn bayatı deyim tərzinin zərifliyi bu nümunələrin araya-ərsəyə gəlməsinə başlıca vəsilə olub. Eyni zamanda bu bayatılar tarixi, doğma yurd yerlərinin varlığını, kökə bağlı vətənçilik duyğusunun bədii sözə yansıması, yaddaşın oyanışına xidmət işidir. Zəlimxan Yaqubun "Cavidin qız balasına", "İçimdə ağlayan Krım" poemalarında, "Aşıq Hüseyn Saraclı" dastan-romanında, "Dərdimizin bayatı düzümü" silsilə şeirlərində [12, s.143-157] "Qanlı tarix" poemasında [12, s.264-272] və başqa əsərlərində bayatı janrının mükəmməl nümunələrinə yer verilmişdir. Şairin "Şəhid qanı" şeirində isə klassik şeirimizin bir çox şəkilləri qarşılığında bayatılardan da yerli-yerində istifadə olunur:

*Əzizim, sıxır məni,*
*Bir yana çıxar məni.*
*O qədər göz yaşları*
*Dağ olsam yıxar məni.*

*Əzizim, qaraqanlı,*
*Çək zülfün dara qanlı.*
*Cəllad, əlin qurusun,*
*Güllə sərt, yara qanlı.* [13, s.86-88]

Göründüyü kimi, Zəlimxan Yaqub qədim tarixə malik bayatı janrından XX əsrin sonu, XXI əsrin ilk onilliklərində müstəmləkəçilik siyasətinin, Ermənistan vandalizminin ağrılarını yaşamış xalqımızın daxili yaşantılarını, inam dolu gözləntilərini ifadə etmək üçün məharətlə istifadə etmişdir. Ümumiyyətlə, Zəlimxan Yaqubun 2006-cı ildə "Şərq-Qərb" nəşriyyatı tərəfindən çap edilmiş ikicildlik "Seçilmiş Əsərləri"nin hər iki cildində bayatı da daxil olmaqla ağız ədəbiyyatımıza, folklora, klassik ədəbiyyatımıza daxil olan məlum şeir formalarının demək olar ki, hər birinə aid çoxsaylı şeirləri yer alıb. Bayatı bitən yerdə qoşma, gəraylı, gəraylı bitən yerdə laylalar başlayır. Bu nümunələrin hər birində Sarı Aşıq, Lələ, Ağabəyim ağa ruhunun parlaq nəfəsi, orijinal, özünəməxsus şəkillənməsi var.





"Ədəbiyyat qəzeti"nin 12 noyabr 2017-ci il tarixli sayında Xalq şairi Fikrət Qocanın "Qarabağ bayatıları" dərc olunmuşdur. Bu bayatıların diqqətə çatdırdığı əsas fikir ondan ibarətdir ki, "Qarabağ bizim olub, Bizim də olacaqdır", "Qarabağın anası – Böyük Azərbaycandır". Tarixi həqiqəti xalqın qan yaddaşından gələn bir şeir formasında ifadə etmək təqdirəlayiqdir. Fikrət Qocanın bayatıları lirik-estetik və poetik baxımdan Zəlimxan Yaqubun bayatıları qarşılığında o qədər də güclü ədəbiyyat faktı deyil:

*Qarabağ – böyük bağdı,*
*Dağı da – böyük dağdı.*
*Qarabağ bizim olub,*
*Bizim də olacaqdı.*

*Qarabağ bir cahandı,*
*Qarabağ canda-candı.*
*Qarabağın anası*
*Böyük Azərbaycandı.* [4]

Digər bir şair, Məmməd Namazın bayatıları isə daha uğurlu nümunələr kimi yadda qalır: "Əzizim, aşıq gəlsin,/Elə yaraşıq gəlsin./Pəncərəmdən bax, boylan,/Gözümə işıq gəlsin", yaxud "Nərgizlər bitər gedər,/Vaxt gələr, ötər gedər./Küləklər aşiq olar,/Yar telin öpər gedər" [7].

Gənc şair Elşad Baratın 44 günlük tarixi qələbəmiz yolunda qəhrəmancasına həlak olmuş şəhid oğullarımızın xatirəsinə həsr etdiyi silsilə şeirlərində bayatı elementləri xüsusi ovqatı ilə seçilənlər sırasında yer aldı. Gəraylı janrı ilə bayatı şeir forması qarışığında qələmə alınmış bu tipli nümunələr yeni forma, ifadə təzəliyi baxımından razılıq doğurur:

*Zəfərin bu taydadır,*
*Özün o tayda şəhid.*
*Balası boyda ata,*
*Vətəni boyda şəhid.* [2]

Şair İlham Qəhrəmanın bayatıları lirik-emosional ovqatıyla daha çox diqqət çəkir. Şair-ədəbiyyatşünas Bilal Alarlı "525-ci qəzet"də dərc etdirdiyi "İlham Qəhrəmanın müharibə və zəfər bayatıları" məqaləsində yazır: "İlham Qəhrəman Qarabağ ağrısını bayatıya yükləyə bildi, oxucuları üçün zəfər sevincini də bayatı ilə gətirdi" [1]. Doğrudan da, izhar edilməsi çətin, çox vaxt mümkünsüz olan ağrının, dərdin yaşantısından rişələnən duyğular İlham Qəhrəmanın bayatılarında olduqca mükəmməl, irfani düşüncə fonunda təqdim olunur:

*Kəkliyin uçan yeri,*
*Ceyranın qaçan yeri.*
*Hər cür adın xəyalda –*
*Səhərin açan yeri.*

Tənqidçi İradə Musayeva "Ömrüm bir qəmli bayatı..." məqaləsində yazır: "Bu gün bu janrı ədəbiyyatımızda kimlər yaşadır? Onun məna-məzmun, poetik ifadə imkanlarını inkişaf etdirərək gələcək nəsillərə ötürmək qayğısına kimlər qalır? İlk növbədə, ağıla İlham Qəhrəman gəlir. Sözdən ən son həddə qənaətlə istifadə etməyi bacaran, az sözə çox məna yerləşdirmək istedadı olan, şeir texnikasına məsuliyyətlə yanaşan müəlliflərdə bayatı yazmaq uğurlu olur. İlham Qəhrəman bayatı qafiyələnməsi (a-a-b-a) üçün əsas şərt olan gözlənilməz açılış məqamını həssaslıqla işləməyi bacarır.

Ən gözəli də odur ki, xalq şeiri üslubunda Aşıq Qurbani, Molla Pənah Vaqif, Aşıq Ələsgər gözü və ruhu ilə detalları, incə gözəllikləri, həyatın, məişətin poetik məqamlarını cilalayıb əlaqələndirməyi bacarır. Kəlmələr bir-birinə qoşulmur, bir-birinə sarılır, bir-biri ilə qohum kimi qaynayıb-qarışır" [8].

Həqiqətən də, İlham Qəhrəmanın bayatıları boş pafosdan uzaqdır, imkan daxilində artıq söz və ibarələrdən arınmış səviyyədədir, adi danışıq ritmi üzərində köklənərək, saf, səmimi bir axarda təqdim olunur. Yaradılan assosasiyalar arasındakı bağlılıq poetik təəssürat bütövlüyünü hasilə gətirir:

*Mən görən güldən ağlar,*
*Şeh düşər gül dan ağlar.*
*Gülü bəsləyən ölmüş,*
*Gül ağlar, güldan ağlar.*

*Qaş qara, tel çalam a,*
*Üz göstər maç alam a!*
*Rəbbim, duyğulu kəsi*
*Duyğusuza calama!*

Bu mətnlərdə şairin cinas yaratma orijinallığı xüsusi diqqət çəkir. Sədnik Paşayev tədqiqatında yazır ki, "Cinaslı olsa da, bayatı başqa şeir şəklidir, qoşma da bir başqa. Bayatılardan əlavə, digər xalq şeirlərində də ara-sıra cinaslara rast gəlirik" [9, s.208]. İlham Qəhrəmanın meydana qoyduğu bayatı cinaslarda hissi və zehni dolğunluq, hiss və fikrin qol-qanad açmasına imkan yaratmaq, poetik təxəyyülün enerjisini qapamamaq cəhdləri və təbillik onların folklorla bağlılığını təmin edən əsas vasitələrdir:

*Yol götürdün yara var,*
*Könlüm, səndə yara var.*
*Yazı yazana şükür,*
*Mən özüm türk, yar avar.*

Yuxarıda qeyd etdiyimiz kimi, bayatılar daha çox hüzn, həsrət ovqatı üzərində qərarlaşdığından şairlərə bu janrda özünü, fikrini, poetik "mən"ini ifadə eləmək daha rahatdır. Çünki müstəqillik dövrünün ilk iki onilliyi Qarabağ problemindən dolayı daha çox ağrını poetikləşdirməyi önə çəkən zaman vahididir. Mahirə Nağıqızının bayatıları bu mənada daşıdığı duyğu yükünün ağırlığına görə seçilən və janrın tələbləri baxımından uğurlu təsir bağışlayan mətnlərdir.

*Çəkələr şişə qəlbimi,*
*Sındırıb şüşə qəlbimi.*
*Düşmənim əzizildi,*
*Dağladı Şuşa qəlbimi.*

Zahid Xəlil doğru qeyd edir ki, "Şairin (Mahirə Nağıqızının – Ş.İ.) bədii dilində maraqlı bir çeviklik var" [11]. Bura başqa keyfiyyətləri də əlavə etmək olar. Mahirə Nağıqızının bayatılarında ifadəliliyin imkanlarından maksimum istifadə etmək, assosiasiyaların aniliyini, təbii axarını saxlamaq əsas fərqləndirici xüsusiyyətlərdir. Folklor təbiiliyinə, mifoloji və metaforik obrazlar canlılığına qayıdan bu şeirlərdə insan ruhunun mürəkkəb çırpınışları ilə yanaşı, həm də təəssürat təbiiliyi vardır.

*Dərdli üzdən yeriyər,*
*Bircə sözdən yeriyər.*





*Dərmanın tapmaq üçün,*
*Durar, təzdən yeriyər.*

***

*O gələn qardı, yağmadı,*
*Qəlbimdə vardı, yağmadı.*
*Saçıma düşmək istədi,*
*Gördü ki, ağdı, yağmadı.*

Mahirə Nağızının şeirləri şairin özü ilə dərdləşdiyi könül pıçıltıları kimi oxunur. Şair uşaqlığına, vətəninə ancaq bu şeirlərin qanadında qayıda bilir, yaddaşının təxəyyülü ona doğmaları, əzizləri ilə irtibata girməyə imkan verir: "Dərdim anamdan savay,/Kimsənə bilmədi, dağlar"; yaxud "Həsən Mirzə, haray ver,/Sənin yerin görünür".

Ümumən, bu şeirlərdə cəmiyyətə, insanlara ünvanlanan çoxlu suallar olsa da, dərdin, hüznün ən etibarlı sığınacağı şairin mənəvi dünyasıdır. Kədər, ayrılıq, hüzn, təklik, yorğunluq və s. kimi sözlər onun şeirlərinin kontekstində daim çəkiləcək yükə çevrilir. Öz ruhunu özünə ən böyük sığınacaq seçən şair üçün ən böyük var-dövlət də elə bu ünvandır: "Ay, salam, yar, salam, yar!/Qadan – balan alam, yar./Varım yox, dövlətim yox,/Ruhuma daldalan, yar".

Professor Məhərrəm Hüseynov "Mahirə Nağıqızının bayatılarından dünyaya baxış" məqaləsində yazır: "Mahirə Nağıqızı bayatılarının hər bir poetik sətri müəllifinin mənəvi-əxlaqi duyğularının idrak məqamında açılışıdır. Bayatılarda əks-səda tapan duyğuların həqiqi siması, onun fəlsəfi istiqaməti, mənəvi yönü dərin bədii mündəricə sayəsində özünü parlaq formalarda büruzə verir. Ədəbi şəxsiyyətin məzmunu bayatı hikmətində təcəssüm edən müdrik düşüncələrin poetik fəlsəfi şərhində tapır. Misraların bədii-estetik, hikmətamiz qayəsi belə bir fikri dönə-dönə təlqin edir ki, ürfan əhli olmadan heyranedici mükəmməlliyə nail olmaq qeyri-mümkündür" [6].

Qeyd edək ki, bu amil, yəni irfana meyil, sufi xətti şair İlham Qəhrəmanın da bayatılarında nəzərə çarpan əlamətdir ("Düz de, düzü bilənə,/Söz de, sözü bilənə./Sevdim demək nə demək–/Səni özü bilənə?!"). Mahirə Nağıqızının da bayatılarında ilahi eşq yolçuluğuna meyil öndədir və bu görünür, ümumən, bayatı janrının müstəqillik illərində ehtiva elədiyi əsas əlamətlərindən biridir: "Dünya quyu – dərin dibi,/Qurbanın gözləyər divi./Qüsulsuz gəlməyim günah,/Sənin qəlbin Allah evi"!

Əlbəttə, burada mətnə gözlənilmədən daxil edilən "Allah evi" detalı şərtidir, lakin bu şərtilik şeirin ümumi ruhundan törəyir, panoramın zəruri amili kimi görünür və ən əsası, aşiqin ruhunda daşıdığı metafizik bir sevgini şəkilləndirir.

## Nəticə / *Conclusion*

Son olaraq, belə nəticəyə gəlmək olar ki, uzun tarixi yol keçmiş bayatı janrı milli müstəqilliyi qazandığımız 1990-cı illərdən sonra da poeziyamızda işlək olmuş, daim üz tutulan, müraciət edilən şeir şəklinə çevrilmişdir. Buna səbəb, həm də bayatı janrının daşıdığı ovqat çaları, daha çox hüznü simvolizə etməsi olmuşdur. Qarabağla bağlı yaşanan tragik məqamlar, tarixi taleyimizdə dərin yara kimi əbədi iz salmış itkilərimiz, şəhid xəbərləri, ana fəryadları bu janrı poeziyanın ən ön sıralarına gətirmişdir. Artıq Zəfəri qazanmış bir ölkənin insanlarıyıq. Yəqin ki, bundan sonra poeziyanın bütün janrlarında şairlərimiz ancaq qələbəni vəsf edəcək, bayatı janrında da əksini tapacaq ağrı yalnız tarixi yaddaşı qorumaq amili ilə bağlı olacaqdır.

**Ədəbiyyat / *References***


1. Alarlı, B. İlham Qəhrəmanın müharibə və zəfər bayatıları / "525-ci qəzet", – 10 noyabr 2022.
2. Elşad, B. Şəhid bayatıları / "Ədəbiyyat qəzeti", – 3 fevral 2021.
3. Əliyeva, İ. Zəlimxan Yaqub yaradıcılığında Qarabağ mövzusu. – Bakı Universitetinin xəbərləri. Humanitar elmlər seriyası. – 2009, № 3.
4. Fikrət, Q. Bayatılar / "Ədəbiyyat qəzeti", – 12 noyabr 2017.
5. Hacılı, A. Bayatı poetikası. – Bakı: Elm, – 2000.
6. Hüseynov, M. Mahirə Nağıqızının bayatılarından dünyaya baxış. https://aqreqator.az/az/medeniyyet/399865
7. Məmməd, N. Bayatılar / "Ədəbiyyat qəzeti", – 11 iyun 2021.
8. Musayeva, İradə. "Ömrüm bir qəmli bayatı…" https://kulis.az/xeber/edebi-tenqid/bu-gun-bu-janri-edebiyyatimizda-kimler-yasadir-ilahi-esq-yolculugu-51727
9. Paşayev, S. Azərbaycan şifahi xalq şeiri və heca vəzninin inkişaf tarixi. – Bakı: Təknur, – 2013.
10. Şəmsizadə, N. "Ədəbiyyat nəzəriyyəsi". – Bakı: Proqres, – 2012.
11. Zahid, X. Mahirə Nağıqızının bayatıları. https://ustacaz.wordpress.com/2022/08/25/ zahid-x%C9%99lil-mahir%C9%99-xanimin-bayatilari/
12. Zəlimxan, Y. Seçilmiş əsərləri. 2 cilddə, I cild. – Bakı: Şərq-Qərb, – 2006.
13. Zəlimxan, Y. Seçilmiş əsərləri. 2 cilddə, II cild. – Bakı: Şərq-Qərb, – 2006.
14. "Zəngəzuru tanıyaq və tanıdaq: Zəlimxan Yaqubun Zəngəzur bayatıları" (şair Musa Urudla müsahibə) / "Müsavat" qəzeti, – 5 noyabr 2022.


## Положение и поэтические возможности жанра баяты в поэзии Азербайджана периода Независимости


**Шамсура Исмайлова**
Институт литературы имени Низами Гянджеви НАНА



**Резюме**. В статье говорится о баяты – одной из самых распространённых форм тюркской поэзии. Отмечено, что обращение большинства поэтов к стихотворной форме в жанре баяты особенно наблюдается в период Независимости. Особенно в этом жанре нашли отражение более чем 30-летняя потеря вечной и неделимой земли нашего Карабаха, вызвавшая горестные чувства боли за Родину, землю, отечество и ощущение тоски, отчаяния. И причина этому состоит в выражении особенно в этом жанре печального настроя боли за родину, отечество.

Баяты, как самая распространённая форма тюркского стихосложения, занимает главенствующее место в нашей классической поэзии. Среди поэтов периода Независимости, творивших в жанре баяты, следует назвать Залимхана Ягуба, Фикрета Годжа, Мамеда Намаза, Ильхама Гахрамана, Махиру Наги гызы, Ельшада Барата и других.


**Ключевые слова:** независимость, Карабах, поэзия, баяты, жанр, форма, поиски, новизна